Xalq qəzeti 2020.- 25 sentyabr.- S.10.

# Tarix İnstitutunun alimi Arsak toponimi ilə bağlı real faktları açıqlayıb



**Azərbaycan türklərinin əzəli yurd yeri olan Qarabağ bölgəsi Cənubi Qafqazda ən qədim insan məskənlərinin yerləşdiyi coğrafiyaya daxildir. Qarabağın Tunc dövrünə aid Xocalı, Xankəndi, Borsunlu, Sarıçoban, Xaçınçay, Üçtəpə kurqanlarından yerli türk boylarına aid xeyli sayda maddi-mədəniyyət nümunələri – qədim türk boylarına aid dolixokran kəllə sümükləri, yaylaq-qışlaq həyat tərzi ilə əlaqədar olaraq taxıl və süd məhsullarının saxlanıldığı saxsı qablar, həmçinin dini dünyagörüşü əks etdirən müxtəlif artefaktlar aşkar edilib. Bu fikirləri AZƏRTAC-a açıqlamasında AMEA-nın Tarix İnstitutunun Azərbaycanın qədim tarixi şöbəsinin elmi işçisi Ramin Əlizadə deyib.**

O bildirib ki, Göyçə gölünün cənub-şərq sahilində Aşağı Zağalı kəndi yaxınlığında aşkar edilmiş Urartu mixi yazılı kitabəsində Qarabağın dağlıq hissəsinin adı qədim türkcədə "Yurd" sözünün qarşılığı olaraq "Urte" kimi çəkilir. Erməni tarixçiləri Q.A.Kapansyan və N.V.Arutyunyan əsassız olaraq Arsak toponiminin "Urtexi" adından yarandığını iddia etmişlər. Tanınmış arxeoloq B.B.Piotrovski Urartunun şimal-şərqə doğru genişlənmə siyasətinin Qarabağ yaylaqlarında yaşayan tayfaların ciddi müqaviməti üzündən baş tutmadığını qeyd edib. Əslində Arsak adı Sak etnonimindən yaranıb, doğru tələffüzü Ərsak olmuş, mənası isə "Sak əri, ərəni" deməkdir.

Azərbaycanın qədim türk boylarının adı Urartu mənbələrində İşqigulu, Aşşur mənbələrində Aşquz və ya İşquz, qədim yəhudi dini mətnlərində Aşkenaz, irandilli mənbələrdə Sak, yunan və latın mənbələrində isə İskit (Skutai) və Skolati kimi çəkilir. Qafqaz regionunda, eləcə də Xəzər dənizi hövzələrində yaşayan Sak boylarının antik mənbələrdə rast gəlinən Skolati adı əslində qədim türkcədə "Sak Elatı" sözündən qaynaqlanır.

Orta əsrlər dövründə Alban apostol kilsəsinin mərkəzi olan Gəncəsər məbədinin kitabəsində Alban-Xaçın knyazı Həsən Cəlal "Uca və böyük Ərsak ölkəsinin hökmdarı, Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu" kimi yad edilir. Bu kitabə onun əcdadlarının qədim türk boyuna mənsub olan Ərsak soyundan olmasını bir daha təsdiq edir. Təsadüfi deyil ki, XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşayan alban xristian məlikləri də I Pyotra və II Yekaterinaya yazdıqları məktublarında özlərinin erməni deyil, alban olduqlarını təsdiq etmişlər. Akademik Yaqub Mahmudov araşdırmalarında qeyd edir ki, bu məktublar erməni alimləri tərəfindən saxtalaşdırılaraq, "alban türkləri" - "müsəlman albanlar", "Arşaki nəsli" isə "erməni rəisləri nəsli" ifadələri ilə əvəz edilib. Qeyd edək ki, Arsak adı bir çox mənbələrdə Arşaki kimi də xatırlanır. Sak etnonimi Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycan ərazisində əsasən yaylaq-qışlaq maldarlığı, dəmyə əkinçiliyi və atçılıqla məşğul olan türk boylarına verilmiş ümumi addır. Qədim yazılı mənbələrdə bəhs olunan Sakasena, Balasakan (Sak düzü), Maskut (Massaget) toponimlərinin, hazırda isə Şəki şəhərinin, Zaqatala rayonunun, Zəngəzurda Sisakan (Sisian) rayonu və Şəki kəndinin adları məhz Sak türklərinin adı ilə bağlı olaraq meydana gəlib. Loru-Pəmbək ərazisində Gözəldərə kəndinin türksoylu boylarından biri Ərsaklılar adı ilə tanınırdı.

Tarixçi alim diqqətə çatdırıb ki, eradan əvvəl I minilliyin birinci yarısında Qarabağ ərazisi İskit-Sak (İç Oğuz) dövlətinin tərkibində olub. Qədim dövr üzrə tanınmış tarixçi alim İ.M.Dyakonov Midiya imperiyasının şimal sərhədinin Araz çayının şimalında "keçmiş İskit dövlətinin ərazisi"ndən keçdiyini göstərir. Şimali Azərbaycan torpaqlarında (Göyçə, Qarabağ, Borçalı, Şəki, Mingəçevir, Gəncə-Qazax) İskit-Sak boylarına aid xeyli sayda maddi-mədəniyyət nümunələrinin aşkar edilməsi regionda onların hərbi-siyasi cəhətdən nüfuzunun güclü olduğunu sübut edir. Antik mənbələrdə Kür və Araz çayları arasındakı ərazi Sakasena adı ilə tanınırdı. Eradan əvvəl I əsrin sonu – bizim eranın I əsrinin əvvəllərində qədim yunan coğrafiyaşünası Strabon Sakasenanın Sak boyunun adı ilə əlaqədar olaraq meydana gəldiyini qeyd edir. I əsrdə yaşamış qədim Roma tarixçisi Böyük Plini "Təbiət tarixi" əsərində Sakasenanın Kürdən cənubda geniş coğrafiyanı əhatə etdiyini qeyd edir. Qədim yunan tarixçisi Arrian isə I-II əsrlərdə Sak ölkəsinin Azərbaycanın Kür və Araz çayları arasındakı geniş ərazisini əhatə etdiyini göstərir. İ.M.Dyakonova görə, Sakasena toponimi "Sakların yaşayış məskəni" (İran dillərində "Sakasayana") mənasında rəsmi olaraq Midiya dönəmindən başlayaraq İskit dövlətinin mərkəzi arealına verilən ad olub. III əsrin ikinci yarısına aid Sasani pəhləvi mətnlərində Cənubi Qafqazda Alban, Adurbadaqan (Atropatena), İberiya kimi dövlətlərlə yanaşı, Sakan və Balasakan ölkələrindən də bəhs edilir.

Antik mənbələrdə Qarabağın dağlıq hissəsi Orxistena adı ilə tanınırdı. Orxistena adının Şərqi Anadoluda yaşayan Hurri boylarının dilində "urxi" ("sadiq insan" mənasında) sözündən yarandığını güman etmək olar. Hurri boylarının türksoylu Saklarla qonşuluqda yaşadığını nəzərə alsaq, Orxistena toponiminin Sak ölkəsinin daxilində türk boylarının oymaqlarından birinə kənardan verilən yer adı olması aydın olar. Alban tarixçisi Musa Kalankatlı eramızın I əsrində Alban dövlətinin ərazisinin cənubda Araz çayından şimalda Borçalı ərazisindəki Hunan qalasınadək uzanan geniş dağlıq və düzən torpaqları əhatə etdiyini yazır. Onun verdiyi məlumata əsasən, Alban dövlətini Sisakan (Sak) soyundan olan Aran (Ərən) və onun varisləri idarə edib. Eradan əvvəl II əsr – bizim eranın I əsrində Azərbaycanın cənubunda Atropatena dövlətində Ərsak (Parfiya) hökmdarlarının "A" monoqramı ilə gümüş pulları zərb edilmiş və regionda "Ərsak pulları" adı ilə tanınmışdır. Parfiya dövlətinin banisi I Arsak parfiyalıların özləri tərəfindən Arşak, farslar tərəfindən Arşaka, romalılar tərəfindən Arsaces, yunanlar tərəfindən isə Arsakes adı ilə tanınıb. I Arsakın (Arşak) əsasını qoyduğu Arşaki sülaləsinin eramızın ilk əsrlərində Şərqi Anadoluda və Cənubi Qafqazda bir neçə qolu hakimiyyətdə olmuşdur. Bu sülalənin qollarından biri olan Alban Arşaki sülaləsi Şimali Azərbaycanda hakimiyyətdə olub. Qarabağ ərazisində ilk Alban xristian məbədi də məhz bu sülalənin hakimiyyəti dövründə inşa edilib.

IV-V əsrlərdə Azərbaycan türk boyları Sasani fars imperiyasının zərdüştlüyü zorla yaymaq siyasətinə qarşı mübarizə aparırdılar. V əsr müəllifi Yegişe Ərən adlı hun sərkərdəsinin Balasakanı özünə iqamətgah edən Sak hökmdarı ilə saziş bağlayaraq Sasani ordusuna qalib gəldiyini, hətta qarətçi basqınlar edən erməni naharararlarını Şərqi Anadoluya qədər qovmasından bəhs edir. Alban tarixçisi Gəncəli Kirakos "Tarix" adlı əsərində türk boylarının qədim zamanlarda olduğu kimi XI-XIII əsrlərdə də, İskit adı ilə tanındığını qeyd edib. Bizans imperiyasında IV-XV əsrlərdə yazılmış yüzlərlə tarixi əsərlərdə və dövlət sənədlərində türklər Hun, Oğuz, Qıpçaq, Səlcuq, Osmanlı adları ilə yanaşı, həm də İskit və ya Sak adlandırılıb.

"XVIII əsrin əvvəllərindən başlayaraq Avropada anti-türk təbliğatının genişlənməsinə xidmət edən və katolikliyi qəbul etmiş erməni mxitarist cərəyanının üzvləri qrabarca yazılmış mənbələri təhrif edərək Venesiyada nəşr etməyə başladılar. Həmin dövrdən başlayaraq M.Horenli, L.Parplı, Yegişe, Koryun və digər müəlliflərin əsərləri mxitaristlər tərəfindən təhrif edilərək "Hayos patmutyun" ("Hay tarixi") adı ilə nəşr olundu və Avropa dövlətlərində "Armeniya tarixi" adı ilə təbliğ edilməyə başlanıldı. Ciddi saxtakarlıqlara məruz qalmış bu cür nəşrlərdə Oğuz, Qıpçaq və Alban türk boylarının gerçək tarixi ört-basdır edildi. Qeyd edək ki, Arsak (Ərsak) bölgəsinin adı da, bu cür nəşrlər vasitəsilə ermənicə təhrif edilmiş "Artsax" formasında sonradan elmi dövriyyəyə daxil edildi", – deyə Ramin Əlizadə vurğulayıb.

**Aşquz (İç Oğuz) dövləti e.ə. I minilliyin ortalarında**

*(Assyrian and Babylonian Literature. New York, 1901)*

